*İslamova N. Sufilik və Baba Neymatulla Naxçıvaninin əsərlərində sufiliyin tərənnümü // Elmi əsərlər, 2018,№2(7),iyul-dekabr,s.61-64.*

UOT 281

**İslamova N.**
*AMEA-nın Naxçıvan Bölməsi, Əlyazmalar fondu,*
*Naxçıvan ş., Heydər Əliyev prospekti, 76.*
*e-mail:İslamovanecabet77@gmail.com*

# SUFİLİK VƏ BABA NEYMATULLA NAXÇIVANİNİN ƏSƏRLƏRİNDƏ SUFİLİYİN TƏRƏNNÜMÜ

**Açar sözlər :** *Baba Neymatulla Naxçıvani, Əl-Fəvatihul-İlahiyyə əl- Məfatihul-Ğaybiyyə, Hidayətul-İxvan, sufizm, Ağ şəhər.*

Mistik düşüncə tərzi bəşəriyyətin yarandığı gündər bəri mövcud olan bir məfhumdur. Mistik sözünün mənbəi yunanca “mistikos” sözündən götürülmuşdür. Mistika anlayışı yunan fəlsəfəsində, buddizimdə, iudaizimdə, brahmanizimdə və xristiyanlıqda da müxtəlif formada mövcud olmuşdur. Başqa sözlə desək həm səmavi dinlərdə həm də batil dinlərdə bu anlayış forması müxtəlif şəkillərdə özünü biruzə verməkdədir. İslam dinin mistik təlimləri onun mənəvi həyatını tarix boyu formalaşdıran fəlsəfi –dini cərəyanlar sufilik və təsəvvüf fikirləri ətrafında birləşir. Bu təlimlərin əsası insanın öz nəfsi ilə mübarizəyə dayanır. İnsan öz nəfsi ilə mübarizə apararaq sonunda saflaşır və tərbiyə edilmiş nəfs öz varlığında uzaqlaşaraq Allaha qovuşur. Sufiliyin əsas prinsipi bundan ibarətdir.Əslində Peyğəmbərin dövründə sufilik anlayışı olmamışdır. Amma sufilərə görə təsəvvüf öz mənbəyini Həzrəti Məhəmməd peyğəmbərin hədislərindən dövründən götürmüşdür. Həzrəti peyğəmbərin zamanında sufiliyə ən yaxımn anlayış olan zahidlik mövçud idi. Tədqiqatçılar sufiliyi üç mərhələyə bölürlər. Birinci mərhələ zöhd yəni zahidlik, ikinci təsəvvüf, üçüncü mərhələ isə təriqər olmuşdur. Sufilik müstəqil bir fəlsəfə təlimi kimi ilk olaraq Bəsrədə meydana gəlmişdir. İlk sufi adını alan şəxs Əbu Haşim əl-Sufdur. Əbu Haşimlə başlayan bu cərəyan qısa müddətdə digər islam ölkələrinə də yayılmışdır. Bir qədər keçdikdən sonra sufizim İspanyadan Çinə, Balkan yarımadasından Afrikaya qədər geniş birərazidə yayılmışdır. Əvvəlcə pərakəndə olan sufilik IX əsrdən başlayaraq artıq sistemləşmiş şəkildə inkişaf etməyə başladı. Sistemləşmə əvvəlkilərə nisbətən fərqli xüsusiyyətləri ortaya gətirmişdi. Bir yandan sufiliyin prinsip və qaydaları formalaşmağa başladı digər tərəfdən də sufilik düşüncəsinin pratik həyata keçirildiyi yerlər meydana gəlməyə başladı ki, bu yerlər də təkyə adlanırdı. Böyük sufi alimlərinin yetişdiyi IX-X əsrlərdəsufiliklə bağlı bir sıra əsərlər yazılırdı. Həmin əsərlərdə sufilik geniş tədqiq olunur və onun əsasları müəyyənləşdirilirdi. Sufiliyə təsəvvüf sözünü ilk dəfə gətirən Məruf Kərxi olmuşdur. Böyük sufi alimlərindən olan Zinnun Misri, təsəvüfü ilk dəfə tədqiq edən Səri əs-Səqati, Bağdad sufilik məktəbinin öndə gedənlərindən olan Qəzzalinin müəllimi olmuş Bəyazid Bistami kimi şəxslər öz dövrünün tanınmış şəxsləri kimik tanınmaqla bərəabər həmçinin sufiliyin inkişafında da əvəzsiz xidmət göstərmişlər. Bu alimlər arasında İslam aləminin ənböyük sufi qadını olan Rabia əl-Ədəviyyənin də özünəməxsus yeri vardır. Təsəvvuf tarixində ilahi eşq (əl-Hubb) düşüncəsi məhs ona aiddir. Yarandığı ilk illərdə sufilik sadə lakin dərin mənalı həyat tərzi ikimi diqqəti cəlb edir. Qəzzali kəlam fiqh və təsəvvüfü birləşdirdirmişdi. Fəlsəfi təsəvvüfün yardıcısı olan İbn Ərəbinin fikirləri vəhdəti-vücud fəlsəfəsi ilə bağlı olduğundan dövrünün bir çox alimləri tərəfindən tənqidə məruz qalmışdır. Artıq XII əsrdən müxtəlif təsəvvüf alimləri öz aqdları ilə adlandırılan təriqərlər qurmağa başladılar. Təriqət sözü ərəb dilində yol mənasına gələn tarıqun sözündən götürülmüşdür. Mənası isə yol deməkdir. Təsəvvüf nöqteyi-nəzərindən isə bu Allaha catmaq üçün riayət olunan müəyyən qaydaların sistemli şəkildə icrası mənasına gəlir. Bu

təriqətlərin hər birinin özünəməxsus baş geyimi, xirqəsi və öz şeyxinə bağlılığını göstərən bəzi qaydaları vardır. Təriqətin qurulmasında ən əsas şərt isə hər bir təriqətin Həzrəti Peyğəmbərə qədər qırılmadan davam edən "Şeyx və mürşid" silsiləsinə sahib rəhbəri olmalıdır. Sufi və təsəvvüf sözünün hansı mənaya gəlməsi haqqında müxtəlif fikirlər söylənilir. Bu haqqda fikir söyləyənlərin böyük bir qismi bu sözün ərəbcə"suf" yun sözündən gəldiyini qeyd edir.Sufilərin əsasən yun paltar geydiklərini də nəzərə alsaq bunun həqiqətə daha uyğun olduğunu deyə bilərik. Sufilər sufiliyin Allaha yaxınlaşmağa xidmət edən təlim olduğunu bildirirlər. Sufilikdə təməl məqsəd Allaha yaxınlaşmaq və bu yolda başa gələn hər cəfanı çəkməkdir. Hədəf isə Allah yolunda insanın kamil ola bilməsidir. "İnsani-kamil", yəni kamil insan mənasına gələn bu mərhələyə qalxması bütün sufilərin xəyalıdır. Sufilər mistik həyat tərzi keçirirlər. Onların hədəfləri ruhlarını təmizləməkdir. Buna görə də özlərini bacardıqları qədər nəfsi düşüncələrdən uzaq tuturlar. Bu təlimə görə nəfsinə hakim olmayan insan Allahı görə bilməz. İnsanlar daima dönüb özlərinə baxmalıdırlar. Qəlb qırmamalıdırlar. Təsəvvüf əhli sözlə deyil hal-vəziyyətlə olur. Sufilər islamda əxlaqı on plana çıxarırlar. Onların fəlsəfəsi ondan ibarətdir ki, insan dünyaya yalnız ibadət üçün gəlməmişdir. O insan olaraq yaradıldığı üçün şükr etməli və bunun haqqını da verməlidir. İnsan bütün canlılardan üstün varlıqdır. Düşünməli və Allahı kəşf etməlidir. Büna üçün də əvvəlcə özünü mənən təmizləməli yalnız bundan sonra Allahı axtarmalıdır. Zikr, fikir və nəfs fəlsəfəsi sufizmin əsas fəlsəfəsidir.

Sonradan sufilik ayrı-ayrı mütəfəkkirlərin təliminə görə şaxələnmişdir. XII əsrdə Əbu Nəccəb Sührəverdinin adı ilə bağlı olan sührəverdilik, Əhməd Rifainin adı ilə bağlı olan rifailik, Əbdülqadir Cilaninin adı ilə bağlı qadirilik yaranmışdır. Azərbaycan sufiləri içərisində Sührəverdinin çox mühüm yeri var. Sührəverdi sufizmin mötədil qolunun ən məşhur nümayəndələrindən biridir. O, Zəncan yaxınlığında Sührəvərd qəsəbəsində dünyaya gəlmişdir. İlk təhsilini burda aldıqdan sonra Bağdada gedərək orada təhsilini davam etdirmişdir. Yaqut Həməvi onun haqqında yazırdı: " O Bağdadda su daşıyır, öz qazancını yeyirdi. Çətin günlər keçirən Sührəverdi öz zəhmətkeşliyi və əzmi sayəsində şöhrət qazanmış, Bağdadda baş şeyx rütbəsinə qədər ucalmışdır.

Azarbaycanlı sufi alimlərindən bir diğəri də Məhəmməd Bakuvi Əbdülfərəc Zəncanidir. O, sufizmin ifrat qoluna mənsub olan mütəfəkkirlərdən biridir. Şərqin bir sıra şəhərlərində yaşayaraq təhsil alan Zəncani ərəb dilini gözəl bilmiş və bu dildə əsərlər yazmışdır. Onun ən məşhur kitablarına "Həllacın həyatının başlanğıcı və sonu", "Sufilərin hekayətləri", "Ariflərin xəbərləri", "Qafillərin xəbərləri"-ni misal göstərmək olar.

Belə məşhur alimlərdən biri də Əl-Fəvatihul-İlahiyyə vəl Məfatihul-Ğaybiyyə və Hidayətul-İxvan adlı əsərlərin müəllifi olan Baba Nemətullah Naxçıvanidir. Baba Nemətullah Naxçıvani Naxçıvan şəhərində dünyaya gəlmişdir. Doğum tarixi məlum deyildir. Böyük mütəsəvvif və müfəssir olan Naxçıvaninin soyu, ailəsi və təhsili haqqında geniş məlumat yoxdur. Həyatı Naxçıvan və Təbrizdə keçmişdir. Təbrizdəki qarışıqlıq və Səfəvi hücümlarından ayrılıb Anadoluya köç edərək 1495 –ci ildə Ağ şəhərdə məskunlaşmışdır [6, s. 12].

Qaynaqlarda vəfat tarixi ilə bağlı olaraq çox fərqli tarixlər verilmişdir. Katib Çələbi "Kəşf əz-zünun"da, Bursalı Mehmet Tahir "Osmanlı müəllifləri"ndə Baba Nemətullah Naxçıvaninin ölümü haqqında məlumat verərək onun hicri qəməri 902 (1496)-ci ildə vəfat etdiyini bildirirlər. Görkəmli alim II Bəyazidin hakimiyyəti dövründə (1482-1512) Anadoluya köçərək ömrünün sonuna qədər Ağ şəhərdə yaşamışdır. Onun Anadoluya gəldiyi tarix diqqətə alındığında, ehtimal olunur ki, Nemətullah Naxçıvani hicri qəməri 920 (1514)-ci ildə vəfat etmişdir. Türbəsi Ağ şəhərdə Baştəkkə yolu üzərində, Ağ şəhər dərəsinin sonundadır. Onu da qeyd edək ki, Naxçıvaninin Ağ şəhərdə olan türbəsində qoyulan

qəbir daşında ölüm tarixi hicri qəməri 887 (1482)-ci il olaraq verilmişdir. Naxçıvani hicri-qəməri 905-ci ildə Ağ şəhərdə yerləşdiyinə görə bu tarixlərin doğru olmadığı açıq-aydın görünür. Alimin qəbri Ağ şəhərdə xalqın çox ziyarət etdiyi ziyarətgahlardan biridir. Baba Nemətullah Naxçıvani burada Şeyx Alvan, Ulvan əl-Ağşəhri, Nemətullah Baba, Nemətullah Sultan və Baba Nemət kimi adlarla tanınmışdır[6, s. 14].

Baba Nemətullah, Şeyx Alvan, Nemətullah Sultan kimi adlarla tanınan alimin adının əvvəlində olan "Baba" sözü ata mənasına gəlir və təsəvvüf şeyxlərinə verilən yüksək dərəcəni bildirmək məqsədi ilə işlənmişdir. Alimin əsl adı Nemətullah bin Mahmud Şeyx Alvandır. Həm zahiri və həm də batini elmlərdə yaxşı yetişmiş bir şəxsiyyət olan Naxçıvani, daha çox təsəvvüf, irfan istiqaməti və zəngin mənəviyyatı ilə tanınmışdır. Bu yolda dərəcəsi çox yüksək idi. Bununla bərabər, bu səviyyəsini gizləyib, təvazökarlıq nümayiş etdirirdi. Sadə yaşamağı sevər, kasıblığı zənginlikdən üstün tutardı. Əxlaqı ilə xalqın sevgisini qazanmış, şöhrəti hər tərəfə yayılmışdı. Naxçıvani hənəfi məzhəbinin böyük alimlərindən, zamanın böyük övliyalarından biri kimi qəbul edilmişdir. Sufi şeyxi dərvişin mənəvi atası sayılırdı. İslam aləmində bir çox məzhəblər və təriqətlər mövcuddur. Nəqşibəndi təriqətinin şeyxi olan Nemətullah Naxçıvani sufi mütəsəvvüf müfəssiridir. O, Quranın bütün ayələrini təsəvvüfə görə izah edən ilk təfsir sahibidir. Onu da qeyd edək ki, Nemətullah Naxçıvani bu təfsiri özündən əvvəl yazılmış heç bir təfsir kitabını oxumadan qələmə almışdır.

"Hidayətul-İxvan" əsəri Naxçıvaninin düşüncəsini, onun nə qədər dərin bilgiyə malik olduğunu ortaya qoyur. Məşhur təsəvvüf aliminin bu əsərini tənqidi təsəvvüf kimi də qiymətləndərmək olar. Alim "vacibul-vücud" mövzusunda fəlsəfə və kəlam alimlərinin görüşlərini tənqid etmişdir. Bununla yanaşı o həmçinin pul qazanmaq naminə doğru yoldan çıxan, xalqı talayan yalançı şeyxləri də tənqid atəşinə tutmuşdur. Rəngdən-rəngə girmədən öz işini vicdanla yerinə yetirən, elm, tövhid yolunda səbrlə çalışanlardan, heç kimin qınağına məhəl qoymayıb vicdanla öz işini görənlərdən Allah yolunda ürəyinin qanını axıdanlar deyə bəhs edir.

Baba Nemətullah Naxçıvaninin digər bir qiymətli əsəri də Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsərinə yazdığı şərhdir. Əsər fars dilində yazılmışdır. Tasköprüzadə bunu fars dilində yazılmış mükəmməl bir şərh kimi qiymətləndirmişdir. Baba Nemətullah Naxçıvani bu əsəri Ağ şəhərə köçdükdən sonra yazmışdır. Onun hicri-qəməri 905-ci ildə Ağ şəhərə yerləşdiyi bildirildiyinə görə, əsərin orada yazılmasına aid fikirlər inandırıcıdır. Əsərin nüsxələri İstanbul [4, s. 63], Tehran [ 5, s. 1250-1251] və Berlində [3, s. 97] saxlanılır.

Baba Nemətullah Naxçıvani hər zaman böyük mütəsəvvüf alimlərə pərəstiş etmişdir. Bunlardan Əbu Yəzid Əl-Bistami, Muhyiddin İbnul Arabi, Sultanul-Arifini və başqalarını misal göstərmək olar. Naxçıvani Muhyiddin İbnul Arabinin "Fususul-hikəm" ("Hikmətin qiymətli daşları") adlı əsərinə haşiyə və əlavə yazmışdır. Əsərlərindən anlaşılır ki, Baba Nemətullah İbnul-Arabi tərəfdarı olub və onun vahdətul-vücud haqqınakı fikirlərini mənimsəmişdir. Sufilik, sufi alimləri, onların əsərləri haqqda çox danışmaq olar. Bu məqalədə azərbaycanlı sufi alimlərindən bəzilərinə qısaca da olsa nəzər saldır.

**Ədəbiyyat :**

1. Ateş S. İşari Tefsir Okulu. - İstanbul: Yeni Ufuklar Neşriyat, 1998. - 360 s.
2. Algar H. Nakşibendilik. - İstanbul: İnsan Yayınları, 2013. – 512 s.
3. EilersW. HeinzW. PersischeHandschriftenTeil 1'Verzeichnis der OrientalischenHandscriften in DerctschlandBd. 24/. - Wiesbaden, 1968.

4. Kurt Y. Nimetullah Nahçıvani ve Tasavvufi tefsiri. - Samsun: On dokuz Mayıs Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslam Bilimleri Anabilim Dalı, 1998, 108 s.
5. Munzevi A. Fihristi-i Nushaha-yi Xatti-yi Farsi. - Tahran, 1349 h.ş (1970), Iic . 1260 s.
6. Musakhanov O. Hidayetul-İhvan. Sufilerin Kelamcıları ve Felsefecileri Eleştirisi. - İstanbul: İlkharf Yayınevi, 2012. – 96 s.
7. Tosun N. Osmanlı Dönemi Sufilerinin Fars Dili ve Literatürüne Katkıları ve Bir Örnek Olarak Baba Nimetullah Nahçivaninin Şerh-i Gülşen-i Razı. - Erzurum: EKEV Akademi Dergisi, 2005. -108 s.
8. Uludağ S. İşari Tefsir. Diyanet İşleri Ansiklopedisi.İstanbul, 2003, XIII c.,535 s.
9. طاشْكُبْرِ زَادَه. الشَّقَائقُ النُّعْمَانِيَّةِ فِي عُلمَاءِ الدولةِ العُثمَانِيةِ. بَيْرُوتْ: لِدَارِ الكِتَابِ العَرَبِي، 1390ه – 1975م، 520 ص.

***Ниджабат Исламова***

## СУФИЗМ И ВОСПЕВАНИЕ СУФИЗМА В ТВОРЧЕСТВЕ БАБЫ НЕЙМАТУЛЛЫ НАХЧИВАНИ

**Резюме**

Нахчыванская земля очень богата великими личностями, гениями, учеными и населением с суфийскими взглядами. Одной из этих личностей является Нейматулла бин Махмуд Шейх Алван, известный под псевдонимами Шейх Алван, Альван аль-Агшахри, Баба Нейматулла и Султан Нейматулла. Нахчивани, внутренне и внешне хорошо обученный наукам, как личность, больше всего прославился в просветительском направлении и великой духовностью. В статье освещаются жизнь, творчество и мистические встречи Бабы Нейматуллы Нахчивани.

**Ключевые слова**: *Баба Нейматулла Нахчивани, Аль-Фаватихул-Илахия аль-Мафатихул-Гайбия, Хидаятул-Ихван, Суфизм, Белый город.*

***İslamova Nijabat***

## SUFISM AND TRIUMPH THE SUFISM OF THE WORKS BY BABA NEIMATULLA NAKHCHIVANİ

**Summary**

The Nakhchivan land is very rich in terms of having great personalities, geniuses, scholars, and sufistic people. One of these personalities is Nematullah bin Mahmud Sheikh Alvan, known as Sheikh Alvan, Alvan al-Aghshahri, Baba Nematullah, NematullahSultan. Nakhchivani who is a well-trained person in both intrinsic and extrinsic sciences is known for his great spirituality mostly in Sufism and wisdom directions. The article deals with the life, creativity and sufistic views of Baba NematullahNakhchivani.

**Key words:** *Baba Nematullah Nakhchivani, Al-Fawadi-il-ilahiyyah al-Mafath al Ghaybiyyah, Hidayatul-Ihvan, Sufism, White city.*

*Redaksiyaya daxil olma tarixi:01.10.2018*
*Çapa qəbul olunma tarixi: 14.12.2018*

*Filologiya üzrə elmlər doktoru **Gülbəniz Babaxanlı** tərəfindən çapa tövsiyə olunmuşdur.*